# "Xəzər-Lənkəran" klubunun prezidenti Şröderin Ərdoğana hədiyyə etdiyi avtomobildən alıb

## Avtomobilin qiyməti bir milyon dollardır

**Futbol üzrə milli çempionatda mübarizə aparan Lənkəranın "Xəzər-Lənkəran" klubunun prezidenti Mübariz Mənsimov Azərbaycanda olduğu kimi Türkiyədə də məşhurdur. O, qardaş ölkədə ən zəngin azərbaycanlı kimi tanınır. Türkiyənin "Sabah" qəzetinin yazdığına görə, M.Mənsimov bir milyon ABŞ dolları dəyərində olan "Mercedes-Maybach" avtomobili alıb.**



"Xəzər-Lənkəran" klubunun prezidentindən başqa bu avtomobildən Türkiyədə cəmi iki tanınmış şəxsdə var. Maşınlardan birini Almaniya kansleri Gerhard Şröder baş nazir Rəcəb Teyyub Ərdoğana hədiyyə edib. Dünyanın ən nüfuzlu digər avtomobili isə türk iş adamı Yılmaz Araşa məxsusdur. M.Mənsimov bildirib ki, yol qəzalarından ehtiyat etdiyi üçün "Maybach" avtomobilinə üstünlük verir. "Sabah" qəzetinin yazdığına görə 36 yaşlı Mənsimov Türkiyədə yaşayan ən zəngin azərbaycanlı kimi tanınır: **"O, Rusiya və Bakıda limanı olan şəxsin doqquz ortağından biridir. Mənsimov hazırda illik gəliri bir milyard dollar olan "Palmali" Şirkətlər Qrupunun rəhbəridir. Bu şirkət Rusiyanın su hövzəsində çalışan iki şirkətdən biridir. Şirkətin şərikli 128, şəxsi 78 tanker gəmisi var".**